**15 oktyabr 2015-ci il tarixində Nizami Rayon Statistika Şöbəsində "Ümumdünya Statistika Günü"nə həsr olunmuş tədbir keçirilmişdir.**

Tədbirdə Nizami Rayon İcra Hakimiyyəti başçısı aparatının Sosial-iqtisadi inkişafın təhlili və proqnozlaşdırılması şöbəsinin baş məsləhətçisi Məhəmməd Kərimov, Bakı Şəhər Statistika İdarəsinin rəisi Heydər Qafarov, "Azad Azərbaycan" qəzetinin əməkdaşı Məmmədhəsən Məmmədov və Nizami rayonunda fəaliyyət göstərən müəssisə və təşkilatların baş mühasibləri iştirak etmişdir.



Tədbiri Nizami Rayon Statistika Şöbəsinin rəisi Nəcəf İsmayılov giriş nitqi ilə açmış və çıxışında bildirmişdir ki, Prezident İlham Əliyevin əzmkarlıqla davam etdirdiyi çoxsahəli islahatlar kursu ölkəmizin iqtisadiyyatında böyük uğurlar yaratmışdır. Dövlət başçısı Heydər Əliyev siyasi kursunu qətiyyətlə davam etdirərək xalqda dərin inam yaratmış,sosial-iqtisadi inkişaf strategiyasının ardıcıl şəkildə və yüksək dinamizmlə həyata keçirilməsinə əsaslı zəmin formalaşdırmışdır.

Məlum olduğu kimi, Birləşmiş Millətlər Təşkilatının Baş Assambleyasının 69/282 saylı qətnaməsinə əsasən 2015-ci il 20 oktyabr tarixi "Ümumdünya Statistika Günü" elan edilmişdir. Baş Assambleya bütün üzv dövlətləri, BMT-nin ixtisaslaşmış qurumlarını, BMT sistemi təşkilatlarını və digər beynəlxalq və regional təşkilatları, o cümlədən qeyri-hökumət təşkilatları,tədqiqat institutları, media və digər bütün rəsmi statistika yaradıcıları və istifadəçiləri də daxil olmaqla,vətəndaş cəmiyyətini "Ümumdünya Statistika Günü"nü yaxından izləməyə dəvət etmişdir. Statistika ölkələrin mədəni, tarixi və inkişaf səviyyəsindən asılı olmayaraq, dəlillərə əsaslanan qərarlar qəbul etməsi üçün olduqca vacibdir. Baş Assambleya 69/282 saylı Qətnaməni qəbul etməklə, etibarlı və zamanında statistika və göstəricilərin yaradılması üçün milli statistika potensialının fundamental əhəmiyyət daşıdığını bir daha təsdiqləmişdir. Tutarlı məlumat milli, regional və beynəlxalq səviyyədə siyasətin formalaşdırılması və monitorinqi üçün əvəzolunmaz əsasdır.



Bir qədər statistika haqqında da ümumi məlumatdan bəhs edərək, söyləmişdir ki, statistika termini latın sözü olan «status» - dan əmələ gəlmişdir ki, hərfi tərcüməsi hadisələrin vəziyyəti deməkdir. Bu sözün kökündən «stato» (dövlət), «statista» (statistik - dövlət işlərinin bilicisi) və «statistica» (statistika – dövlət

haqqında müəyyən biliklərin, məlumatların cəmi) sözləri yaranmışdır. Bu termindən ilk dəfə alman alimi, fəlsəfə və hüquq professoru Qotfrid Axenval (1719-1772) istifadə etmişdir. O, 1746-cı ildən əvvəlcə Marburq, sonra isə Qettinqen universitetlərində statistika adlandırdığı yeni fənni tədris etməyə başlamışdır. Statistikada alman təsviri məktəbinin əsasını qoyan Q. Axenvalın statistika haqqında baxışları müasir baxışlardan əhəmiyyətli dərəcədə fərqlənir. O, yeni tədris olunan fənnin məzmununu dövlətlərin siyasi vəziyyətinin və diqqətəlayiq yerlərin təsvir edilməsi hesab edirdi.

İngilis siyasi arifmetika məktəbinin yaradıcıları olan Con Braunt (1620-1674) və Vilyam Pettinin (1623-1687) elmi baxışları statistika haqqında müasir baxışlara daha yaxın olmuşdur. Təsadüfi deyil ki, K.Marks V.Pettini siyasi iqtisadın atası və statistikanın yaradıcısı adlandırmışdır.

Statistikanın sonrakı inkişafı Belçika statistiki A.Ketlenin (1796-1874) adı ilə bağlıdır. Statistik göstəricilərin sabitliyi nəzəriyyəsinin işlənməsində onun xüsusi xidmətini qeyd etmək lazımdır.

Statistikanın inkişafında riyazi istiqamətin nümayəndələri olan F.Qalton (1822-1911), K.Pirson (1857-1936), V.Qosset (1876-1936), R.Fişer (1890-1962), M.Mitçel (1874-1948) və s. kimi alimlərin xüsusi xidmətləri olmuşdur. Belə ki, K.Pirson hadisələr arasındakı qarşılıqlı əlaqələrin miqdarca qiymətləndirilməsi nəzəriyyəsinin işlənməsində böyük xidmətə malikdir. Kiçik seçmə nəzəriyyəsi V.Qossetə (Styudent ləqəbi ilə yazmışdır) məxsusdur. R.Fişer miqdar təhlili metodlarını inkişaf etdirmişdir. Dispersiya təhlili metodu onun adı ilə bağlıdır. M.Mitçel isə «iqtisadi barometr» ideyasını irəli sürmüşdür.

Bu istiqamətin nümayəndələri tam haqlı olaraq statistikanın əsasını ehtimal nəzəriyyəsi hesab edirlər.

Hazırda statistika termini üç mənada işlədilir. İlk növbədə statistika dedikdə adamların xüsusi praktiki fəaliyyət sahəsi başa düşülür. Hansı ki, bu fəaliyyət sosial-iqtisadi inkişaf səviyyəsini əks etdirən məlumatların toplanması, işlənməsi və təhlilinə istiqamətlənmişdir. İkincisi, statistika təcrübəsində istifadə olunan nəzəri fikirlərin və metodların işlənməsi ilə məşğul olan elm sahəsi statistika adlandırılır. Nəhayət, bəzən müxtəlif hesabatlarda əks etdirilən, dövri mətbuatda və külliyyatlarda dərc edilən statistik məlumatlar da statistika adlandırılır.

Statistika elmi ilə statistika təcrübəsi arasında sıx əlaqə mövcuddur. İstənilən statistik iş elmi cəhətdən təşkil olunmalıdır. Bunsuz düzgün nəticələr əldə etmək olmaz. Ona görə də statistika təcrübəsi elmə əsaslanmalıdır. Eyni zamanda statistika elmi özü də təcrübəyə əsaslanır, praktiki iş təcrübəsini ümumiləşdirir və aparılmış ümumiləşdirmələr əsasında yeni ideyalar irəli sürür. Öz növbəsində statistika elminin yeni nəzəri nəticələrinin təcrübədə tətbiqi onun inkişafına təkan verir.

Azərbaycan Xalq Cümhuriyyətinin 23 aylıq fəaliyyəti dövründə ölkə ərazisində statistik məsələlərə rəhbərlik edən vahid orqan yaradılmasa da, ayrı-ayrı nazirliklərin tərkibində statistika ilə məşğul olan qurumlar yaradılmışdır.1920-ci ilə qədər Azərbaycanın indiki ərazisində statistik məsələlərə rəhbərlik edən vahid orqan olmamışdır. Azərbaycan statistikasının rəsmi təşkili üçün 1920-ci il iyul ayının 8-də Nəriman Nərimanovun imzası ilə Azərbaycan İnqilab Komitəsi tərəfindən statistiklərin müvəqqəti kollegiyası haqqında əsasnamə təsdiq edilmişdir.

1920-ci il avqust ayının 19-da isə Azərbaycan İnqilab Komitəsi tərəfindən dövlət statistikası haqqında yeni əsasnaməyə görə,ölkədə statistikanın aparılması Mərkəzi Statistika İdarəsinə(MSİ) və onun tərəfindən yaradılan orqanlara;digər orqanların statistika təşkilatlarına,şəhər,rayon,qəza,nahiyə və kənd inzibati və inzibati-təsərrüfat orqanlarına həvalə edilmişdir.

Mərkəzi Statistika İdarəsi tərəfindən bütün dövrlərdə statistik məlumatların iqtisadi təhlilinin təkmilləşdirilməsi və dərinləşdirilməsi üzrə məqsədyönlü işlər aparılmışdır. 1970-80-ci illərdə SSRİ-nin digər respublikalarında olduğu kimi, Azərbaycan SSR Mərkəzi Statistika İdarəsinin mütəxəssisləri də SSRİ MSİ tərəfindən xarici ölkələrdə statistikanın yaradılması və

təşkilinə cəlb olunmuşlar.Qeyd etmək lazımdır ki,ölkədə statistika orqanlarının strukturu həmişə inzibati-ərazi bölgüsünə uyğun qurulmuşdur.

Sənaye, kənd təsərrüfatı, əsaslı tikinti, nəqliyyat, maddi-texniki təchizat və digər statistika sahələri üzrə mərkəzləşdirilmiş statistika hesabatları olduğundan Respublika Hesablama Mərkəzi statistik məlumatların mərkəzləşdirilmiş qaydada yığılması və işlənməsi funksiyasını həyata keçirirdi və hal-hazırda da həyata keçirir. Hazırda fərq ondan ibarətdir ki, BHM bütün sahələr üzrə rəsmi statistika hesabatlarını ayrı-ayrı müəssisə, idarə və təşkilatlardan deyil, yalnız yerli statistika orqanlarından alır.

Müstəqillik əldə etdiyimiz 1991-ci ildən başlayaraq, Dövlət Statistika Komitəsində struktur dəyişiklikləri həyata keçirilmiş, rayon (şəhər) məlumat hesablama mərkəzləri ləğv edilmiş, bu mərkəzlərin bazasında rayon (şəhər) statistika idarələri (şöbələri) yaradılmışdır. Məlumatların işlənməsinin və texniki avadanlığın istismarının təşkili ilə məşğul olan mütəxəssislər digər sahələrə keçmişlər. Məlumatların işlənməsi texnologiyasında və kompüter texnikasının inkişafında inqilabi dəyişikliklər baş vermişdir. Artıq EHM-lər öz əhəmiyyətlərini itirməyə başlamış və onların yerini daha çox iş görmək imkanı ilə yanaşı, çox az yer tutan stolüstü kompüterlər əvəz etməyə başlamışdı. Bu prosesi sürətlə başa çatdırmaq, yeni proqramlaşdırma dillərini öyrənmək və yeni sistemlərin tətbiqinin vacibliyini nəzərə alaraq, ilk dəfə 1991-ci ildə Dövlət Statistika Komitəsinin mərkəzi Aparatında 36 işçi stansiyanı özündə birləşdirən məlumat şəbəkəsi yaradıldı. Yeni texniki vasitələrin və texnologiyanın tətbiqi ilə yanaşı, statistik hesabatların fərdi kompüterlərdə işlənməsinin təmin edilməsi məqsədi ilə, yeni proqramlaşdırma dillərinin (FoxPro, Paskal, Delfi, PHP, Java), sistemlərinin (Windos, Novell, Linux və c) və məlumat bazalarının aparılması (Domino, Oracle və s) işlərinin proqramçılar tərəfindən mənimsənilməsinə nail olundu. Beləliklə, mərhələlərlə bütün statistik hesabatların işlənməsinin yenidən proqramlaşdırılmasına nail olundu. Bütün bu işlər 2000-ci ilə qədər artıq başa çatdırılmışdı. 2000-ci ildən başlayaraq, Dövlət Statistika Komitəsinin inzibati binasında yeni lokal məlumat şəbəkəsinin qurulmasına başlanmış və bu iş müvəffəqiyyətlə həyata keçirilmişdir.

Azərbaycan Respublikasının Prezidenti tərəfindən 18 fevral 1994-cü ildə “Rəsmi statistika haqqında” Azərbaycan Respublikasının Qanunu imzalanmışdır.Qanunun qəbul edilməsi statistik fəaliyyətin qanuniləşdirilməsinin təmin olunmasında mühüm rol oynadı və Azərbaycan tarixində ilk dəfə olaraq qanunvericiliklə statistika sahəsində əsas anlayışları, onun subyektlərinin hüquq və vəzifələrini, fəaliyyətinin əsas parametrlərini müəyyənləşdirdi.

Azərbaycan Respublikasında Dövlət Statistika Komitəsinin ümumi strukturunda ciddi dəyişiklik mərkəzi icra hakimiyyəti orqanlarının qanunvericiliklə müəyyən edilmiş fəaliyyət istiqamətlərinə uyğun dövlət siyasətini və tənzimlənməsini həyata keçirmək məqsədilə baş vermişdir.

Bu gün heç vaxt olmadığı kimi, statistik məlumatların keyfiyyəti statistiklərin peşəkarlığından, onların statistik müşahidələri bacarıqla təşkil etməsindən və aparmasından, respondentlərdən alınmış məlumatların təhlilindən, onların səhvlərini aşkara çıxarmaqdan, rəsmi statistika metodologiyaları əsasında göstəricilərin hesablanmasını həyata keçirməkdən ibarətdir. Təcrübə göstərir ki, statistik məlumatların toplanması yalnız çox böyük əmək və vəsait tələb etmir, həmçinin müxtəlif bilikləri, müasir iqtisadiyyat və sosial həyatı başa düşməyi tələb edir. Əgər bunlar olmasa, sosial-iqtisadi hadisələr başa düşülmürsə, onda göstəricilərin hesablanması çətinləşir, keyfiyyət aşağı düşür.

Bakı Şəhər Statistika İdarəsinin Nizami rayon Statistika Şöbəsi 1980-ci ildə hüquqi şəxs kimi dövlət qeydiyyatından keçmişdir.

Dövlət Statistika Komitəsi tərəfindən hər il təsdiq olunan “Statistika işləri haqqında proqram”a əsasən yerli statistika orqanlarının işi təşkil olunur.

Bildiyiniz kimi, Rayon Statistika Şöbəsi “onlayn” və ya kağız formasında təqdim edilmiş rəsmi statistika hesabat məlumatlarının yoxlanılması, rayon üzrə icmal hesabatlarının hazırlanması, statistik müayinələrin keçirilməsi, iqtisadi göstəricilərin təhlili, hesabat

intizamının möhkəmləndirilməsi, statistik vahidlərin aktuallaşdırılması ilə bağlı və digər işləri həyata keçirir.

Aylıq və rüblük hesabatlar üzrə yekun cədvəllər sahələr üzrə tərtib edilib Dövlət Statistika Komitəsinin Baş Hesablama Mərkəzinin və Bakı Şəhər Statistika İdarəsinin elektron ünvanlarına göndərilir.

Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin 31 oktyabr 2012-ci il tarixli,30/2 saylı kollegiya qərarı ilə təsdiq edilmiş "Yerli statistika orqanları tərəfindən icra hakimiyyəti orqanlarına təqdim edilən iqtisadi-statistik məlumatlara dair tövsiyyələr"ə uyğun olaraq statistik məlumatlar,bülletenlər və təhlili məruzələr müəyyən olunmuş vaxtda Nizami Rayon İcra Hakimiyyətinə təqdim edilir.

Rayon statistika şöbəsi sosial-iqtisadi göstəriciləri əks etdirən rəsmi statistika hesabatlarının statistik vahidlər tərəfindən elektron sənəd formasında vaxtında və keyfiyyətli göndərilməsi üçün müəyyən işlər görür. Hüquqi şəxslərin hesabata cəlb olunması və bu işin məqsədi və əhəmiyyəti barədə onların maarifləndirilməsi üçün mühasibat işçiləri ilə mütəmadi olaraq təlimatı müşavirələr keçirilir, onlara əməli köməklik göstərilir.

Rayon ərazisində yerləşən müəssisə, cəmiyyət və təşkilatların əksəriyyəti bir qayda olaraq rəsmi statistika hesabatlarını düzgün və vaxtlı-vaxtında təqdim edirlər. "Qaz istismar idarəsi", "Jokos LTD" MMC, "Azəri" firması, "Bakı Şərab-1" ATSC, "İnşaat tikinti quraşdırma-NQ" MMC, "ERİ" firması, "İnnova Konstraktion and Kontrakting" MMC, "Sunay" ticarət mərkəzi, "Qarant Servis" MMC, "Fərəh-M" MMC, "Lokomativ" İSM, "6 saylı hüquq məsləhətxanası", "Dəmiryol" GEM, "Kabel qovşağı", "Nizami Telefon qovşağı", "Şərab Nəqliyyat" və s. bu qəbildən olan müəssisə və cəmiyyətlərdir.

2015-ci ilin əvvəlindən hesabat intizamı və yeni tətbiq edilmiş rəsmi statistik hesabatları ilə bağlı müəssisə və təşkilatlara məktublar yazılıb . Şöbənin işçiləri tərəfindən hesabat və ya fəaliyyət göstərmədiyi barədə arayış təqdim etməyən hüquqi şəxslərin ünvanlarına da baş çəkilib. Hüquqi və faktiki ünvanları dəyişmiş statistik vahidlərin tapılması üçün digər tədbirlər də həyata keçirilib. Lakin acınacaqlı haldır ki, dəfələrlə xəbərdarlıq edilməsinə baxmayaraq, bəzi müəssisə və cəmiyyətlər tərəfindən rəsmi statistika hesabatları vaxtında təqdim olunmur.

Dövlət Statistika Komitəsinin rəhbərliyi tərəfindən rəsmi statistikanın daha da təkmilləşdirilməsi istiqamətində müəyyən işlər görülür. Belə ki, qeyd edildiyi kimi qısa bir müddət ərzində Dövlət(region) müşahidələrinin aparılması üçün lazım olan məlumatların "onlayn" formasında Dövlət Statistika Komitəsi orqanlarına təqdim edilməsi ilə bağlı bütün təşkilati işlər öz həllini tapmış, rəsmi statistika hesabat formalarının sayı ildən-ilə azaldılmış, hesabat formaları daha da mükəmməl və konkret hala gətirilmişdir. Əlbəttə ki bu işdə yerli statistika orqanlarının nümayəndələri kimi bizim üzərimizə daha çox məsuliyyət düşür.

Biz çalışırıq ki, ticarət sahəsi (seçmə kataloqla hesabatlar təqdim olunur) istisna olmaqla iqtisadiyyatın digər sahələrində hüquqi şəxs kimi fəaliyyət göstərən bütün statistik vahidləri hesabatların təqdim edilməsinə cəlb edək. Bir sıra hallarda buna nail ola bilmirik. Çünki bu və ya digər səbəblərdən statistik vahidlərin nümayəndələri ilə əlaqə yaratmaq mümkün olmur. Bəzən vergi xidməti orqanında qeydiyyata alınmış cəmiyyət və təşkilatların telefonları və ünvanları göstərilmir, bəzi hallarda isə bu məlumatlar yalnış olur.

Əgər fəaliyyət göstərən statistik vahidlərin hər biri tərəfindən rəsmi statistika hesabatları tam, düzgün və vaxtlı-vaxtında təqdim olunarsa, rayon üzrə icmal məlumatları daha mükəmməl və dəqiq olar. Belə bir işin öhdəsindən gəlmək həm statistika işçilərinin, həm də cəmiyyət və təşkilat nümayəndələrinin vəzifə borcudur.